

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

29 mart 2024-cü il
Cümə

1933-cü ildən çıxır
№ 11 (3675)


# Xankəndidə yeni tarix yazılır

## Azərbaycan məqsədlərinə doğru inamla irəliləyir

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqına bayram təbriklərini Xankəndi şəhərində Novruz tonqalının başında çatdırması tarixi an idi.



Buna görə dövlət başçısının ənənəvi bayram təbriki hər zamankından fərqli rəmzi məna daşıyırdı. Prezident Xankəndidə bir daha dünyaya "Qarabağ Azərbaycandır!" ismarıcını verərkən, çatdığı tonqal da tarixi ədalətin üzərinə işıq saçırdı...

### Böyük xoşbəxtlik

Prezidentin qeyd etdiyi kimi, artıq Qarabağda separatçıların izi-tozu qalmayıb. Novruz tonqalı da son təmizləmə işlərini gördü. Vətən müharibəsindən sonra dördüncü dəfə idi ki, Prezident bayram tonqalını azad edilmiş Qarabağ torpağında alovlandırırdı. Bir-birinin ardınca Şuşada, Suqovuşanda, Talış kəndində çatılmış tonqal altı ay bundan əvvəl antiterror əməliyyatı nəticəsində azad edilən Xankəndi şəhərində separatizmin ruhunu da "yandırıb-yaxdı".

Bəlkə ilk dəfəydi tonqal düşmənin gəlişini bildirən xəbərdarlıq siqnalı kimi yanmırdı – təhlükənin, təhdidin tamami ilə bitdiyini işarə edirdi. Bayram tonqalı həm də suverenlik rəmzinin şöləsi kimi ilk dəfəydi siyasi məzmun kəsb edirdi.

Prezident İlham Əliyev bunu daha dəqiq ifadə etdi: **"Uzun illər ərzində bu meydan və bu bina separatçıların yuvası idi. Ermənistan tərəfindən maliyyələşdirilən və silahlandırılan separatçılar faktiki olaraq Ermənistan ordusunun bir hissəsi idi. Məhz bu meydanda xalqımıza qarşı çirkin planlar hazırlanırdı. Məhz bu binada Xocalı soyqırımının törədilməsi üçün əmrlər verilmişdir. Bu gün isə biz bu meydanda dayanmışıq. Əziz xalqıma bildirmək istəyirəm ki, bu meydana mən "Zəfər meydanı" adı vermişəm, bundan sonra bura Zəfər meydanıdır".**

Dövlət başçısının çıxışı onu da göstərdi ki, Azərbaycan dövləti yeni məqsədlərinə doğru inamla irəliləyir. Bu məqsədlər ermənilərin illərlə vandalcasına dağıdıb tar-mar etdikləri yurdlarımızı yenidən qurmaq, bu torpaqları dirçəltmək, inkişaf etdirməkdir.

Dövlətimiz heç bir ölkənin maddi dəstəyinə, maliyyə yardımına ehtiyac duymadan yalnız öz resursları hesabına bu işi yüksək səviyyədə yerinə yetirir. Şəhərlərimiz, kənd və qəsəbələrimiz genişmiqyaslı quruculuq-abadlıq tədbirləri ilə yenidən həyata qayıdır. Qarabağ, Şərqi Zəngəzur əvvəlkindən də gözəl qurulur. Çünki hər daşına, kərpicinə bu yurdun insanlarının sevgisi qoyulur. Xalqın qələbə əzminin, bu torpaqlarda rifah, əbədi sülh və xoşbəxtlik arzusunun simvolu kimi yanaşılır.

İllərdir Vətənin müxtəlif məkanlarında yurd həsrəti ilə yaşayan məcburi köçkünlərimiz öz doğma ocaqlarına qayıdırlar. Onlar da dövlətimizin qurucu əllərinin tikib-abadlaşdırdığı gözəl, müasir mənzillərdə yeni həyatlarına başlayırlar. Evlərdə, ocaqlarda Azərbaycan ailələrinin çırağı yanır, ocağımız alovlanır. Bu baharın gəlişi ilə arzularımız da pöhrələndi, ürəyimizdə bəslədiyimiz böyük xoşbəxtliyimiz həyata keçdi.

# Birgə səylər davam etdiriləcək

## Azərbaycan dəhşətli terror aktını qətiyyətlə pisləyir

Martın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.

Dövlətimizin başçısı "Crocus City Hall" konsert zalında törədilmiş terror aktı nəticəsində xeyli sayda insanın həlak olması ilə bağlı öz adından və Azərbaycan xalqı adından Vladimir Putinə, Rusiya xalqına, həlak olanların ailə üzvlərinə və yaxınlarına bir daha başsağlığı verib, bütün yaralananların tezliklə sağalmasını arzulayıb.

Prezident İlham Əliyev Azərbaycan tərəfinin bu dəhşətli terror aktını qətiyyətlə pislədiyini bildirərək ölkəmizin və xalqımızın bu ağır saatlarda Rusiyanın və Rusiya xalqının yanında olduğunu qeyd edib.

Rusiya Prezidenti başsağlığına və göstərilən həmrəyliyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlət başçıları gələcəkdə də terrorçuluğa qarşı mübarizə sahəsində birgə səylərin davam etdiriləcəyini vurğulayıblar.

# Dünya ölkəmizdən bəhs edir

## Bakının COP29-a evsahibliyi təqdir olunur

Azərbaycanın 2024-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasına evsahibliyi etməsi bütün dünyanın diqqət mərkəzindədir. Aparıcı dövlətlərin mətbuatında COP29-un dünya üçün əhəmiyyətindən bəhs edən silsilə yazılar dərc edilir. Qeyd edilir ki, Bakının evsahibliyi etmək üçün seçilməsi qlobal enerji diplomatiyasının perspektivləri ilə bağlı beynəlxalq müzakirələrin nəticəsidir. Çünki Azərbaycan karbohidrogenlərin hasilatı və satışı, həmçinin dayanıqlı enerji planlaşdırması perspektivləri sayəsində qlobal enerji reallığında xüsusilə yer tutan ölkədir.

Qeyd edək ki, NATO-nun Baş katibi Yens Stoltenberqin ölkəmizə səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündə başqa məsələlərlə yanaşı, COP29-la bağlı fikir mübadiləsi də aparılmışdı.



# Nazir vətəndaşları dinləyib

## Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 27-də və 28-də Şamaxı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Şamaxı rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.


*(Ardı 2-ci səhifədə)*



Texniki imkanlar uğuru şərtləndirir 2

İnam, etibar və məsuliyyət 3

Gənclər Polis Akademiyasını seçir 3

"Detektiv" çiçək tozları 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

### Uğurlu əməliyyat

Azərbaycan Daxili İşlər Nazirliyi Qırğız Respublikasında şübhəli şəxs qismində saxlanılan 5 azərbaycanlı barəsində toplanmış məlumatı qarşı tərəfə təqdim edib. Həmin şəxslərdən biri Rusiya Federasiyasında, digəri isə Azərbaycan Respublikasında əvvəllər cinayət törədərək məhkum olunub. Həmçinin haqqında bəhs olunan şəxslərlə əlaqələrinin olmasında şübhəli bilinən 4 Qırğız vətəndaşının Azərbaycan ərazisində yeri müəyyən edilib və onlar qarşı tərəfin aidiyyəti hüquq-mühafizə orqanlarına təhvil verilib.

### İqtisadi tempin artması prioritetdir

“Əsas məsələ iqtisadi tempin artmasıdır və biz bütün gücümüzlə buna çalışırıq”. Bunu Baş nazir Əli Əsədov Milli Məclisin iclasında Nazirlər Kabinetinin 2023-ci ildə fəaliyyəti haqqında hesabatı ilə bağlı müzakirələrdən sonra söyləyib. Neft yataqlarının istismarı və neft hasilatı ilə bağlı da danışan Baş nazir deyib ki, təbii ehtiyatlar da zaman keçdikcə tükənir. Neft hasilatını sabitləşdirmək üçün müvafiq danışıqlar aparılır.

### Taksilərə dair tələblər təsdiqlənib

Nazirlər Kabineti “Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər”i təsdiq edib. Tələblər “Avtomobil nəqliyyatı haqqında” qanuna uyğun hazırlanıb, müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəricilərinin, o cümlədən onların daxili və xarici tərtibatına dair tələblərin hüquqi əsaslarını müəyyən edir.

### Qərəzli konfrans

Aİ-Ermənistan-ABŞ müştərək konfransı açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır və ikili standart yanaşmasına əsaslanır. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib. "Bu konfrans, erməni tərəfini xoş niyyətlə danışıqlara sövq etmək əvəzinə, regionda yeni bölücü xətlər və dırnaqarası təsir dairələri yaradır", - Nazirlik qeyd edib.

### Azərbaycandan “yaşıl” enerji ixracı

Azərbaycan Qara dəniz vasitəsilə Avropaya “yaşıl” enerji ixrac etməyi planlaşdırır. İqtisadiyyat naziri Mikayıl Cabbarov Çinin CGTN telekanalına müsahibəsində deyib ki, Azərbaycanda təkcə quruda külək və günəş enerjisinin potensialı 27 GVt təşkil edir, işğaldan azad edilmiş ərazilərin potensialı isə 10 GVt-dır. Ölkənin ümumi quraşdırılmış elektrik enerjisi gücündə bərpa olunan enerjinin payının 2027-ci ilədək 33 %-ə çatdırılması planlaşdırılır.

### Pensiyalarda artım olub

Dövlət Sosial Müdafiə Fondunda qeydiyyatda olan pensiyaçılar bu il yanvarın 1-i vəziyyətinə görə ölkə əhalisinin 10,8 faizini təşkil edib. Dövlət Statistika Komitəsindən bu barədə bildirilib ki, təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 18,6 faiz artaraq 441,3 manat təşkil edib və orta aylıq əməkhaqqının 47,3 faizinə bərabər olub.

### Füzuliyə növbəti karvan

Respublikanın müxtəlif ərazilərində müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı martın 27-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 134 nəfər köçürülüb. Bununla da indiyədək Füzuli şəhərinə 631 ailənin, yəni 2379 nəfərin daimi məskunlaşması təmin edilib. Füzuliyə çatan ailələrə mənzillərin açarları təqdim olunub.

### Azərbaycan yaşıllığa qərq olur

"Yaşıl dünya naminə həmrəylik ili"ndə yaşıllaşdırma işləri daha geniş məna-məzmun kəsb edir və getdikcə vüsət alır. Hələ bir neçə ay əvvəl elan olunub ki, bu il ölkədə 5 milyon ağacın əkilməsi planlaşdırılır. Ağacların 3 milyondan çoxunun Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən əkilməsi nəzərdə tutulur. 2 milyon ağacın əkilməsini isə müxtəlif dövlət qurumları, icra hakimiyyətləri həyata keçirəcək.

### Yeni velosiped zolaqları salınacaq

Bakıda mikromobillik infrastrukturunun inkişaf etdirilməsi məqsədilə həyata keçirilən layihə çərçivəsində 6,5 km məsafəni əhatə edən davamlı mikromobillik zolağı hazırdır. Zolaqlar Bakı şəhərinin mərkəzi hissələrini və Bulvar ərazisini əhatə edir. Artıq Dənizkənarı Milli Park ərazisində də müvafiq işlər başa çatdırılıb.

# Nazir vətəndaşları dinləyib

## Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb



*(Əvvəli 1-ci səhifədə)*

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Şamaxı, Qobustan, Ağsu, Göyçay, İsmayıllı şəhər və rayonlarından qəbula gələn 238 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

34 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 129 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.





# Polisə təşəkkür edirlər

## Vətəndaş məmnunluğu xidmətimizin təməl daşıdır

Hadisələrə adekvat və operativ reaksiya vermək, baş verə biləcək cinayətlərin qarşısını qətiyyətlə almaq, insanların hüquq və azadlıqlarını qorumaq Azərbaycan Polisinin əsas vəzifələrindəndir.

Mövzusundan asılı olmayaraq hər hansı problemin həlli, çözümü üçün vətəndaşların polisə üz tutması, etibarın və etimadın bariz nümunəsidir. Ünvanımıza gələn məktubların hər sətirində vətəndaş məmnunluğu hiss olunur.

“Baş verən yol-nəqliyyat hadisəsi zamanı Nərimanov Rayon Polis İdarəsinin əməkdaşları köməyimə yetişdilər. Azərbaycan Polisindən gördüyüm diqqət və qayğı rəğbətimi daha da artırdı”. Bu fikirlər Fuad Seyidovun təşəkkür məktubundandır.

Cəlilabad rayon sakini İmran Amanov dələduzluğa məruz qalması ilə bağlı müraciətinə operativ və obyektiv baxılmasına görə Yasamal RPİ-nin 29-cu Polis Şöbəsinin əməkdaşlarına minnətdarlığını ifadə edir.

Sosial şəbəkə istifadəçisi Tahir Hüseynli onu narahat edən məsələnin həllini tapmasında göstərdikləri köməkliyə görə Xətai Rayon Polis İdarəsinin, vətəndaş Samirə Eminova isə itirdiyi pulunun tapılıb ona təhvil verilməsində göstərdikləri köməkliyə görə Səbail RPİ-nin 39-cu Polis Bölməsinin əməkdaşlarına minnətdarlıqlarını bildirirlər.

Paytaxt sakini Dünyamalı Məmmədov yazır ki, ona dəyən maddi ziyanla bağlı Səbail RPİ-nini 41-ci Polis Bölməsinə müraciət edib. Polislərin səyi nəticəsində dəymiş ziyan ödətdirilib.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Texniki imkanlar uğuru şərtləndirir

## Polisin mühafizəsi varsa, kriminal risk yoxdur

Kriminogen vəziyyət nə qədər sabit olsa da, cinayət hadisəsilə üzləşmək ehtimalını gözardı etmək doğru olmaz.

Xüsusən daşınmaz əmlak sahiblərinin oğurluğa qarşı təhlükəsizlik tədbirlərini gücləndirməsi tövsiyə edilən, hətta, riskləri minimallaşdırmaq baxımından tələb olunan şərtdir. Mənzil və obyektlərə kamera nəzarət sistemlərinin quraşdırılması ilə əmlak sahibləri effektli qorumanı təmin etdiklərini düşünə bilərlər.

### Zərər çəkən olmasın...

Bəlkə bunda müəyyən qədər haqlıdırlar da. Müşahidə kameraları cinayətkarın yaxalanmasına və məsuliyyətə cəlb olunmasına, şübhəsiz ki, kömək edir. Çünki belə nəzarət kameraları dəlil-sübut “toplayır”, bu da cinayətin üstünün açılmasında işə yarayır. Ancaq, bu, cinayətlərin, arzuolunmaz hadisələrin önlənilməsində arzuolunan nəticəni vermir, qeyd etdiyimiz kimi, daha çox sonrakı təhqiqat-istintaq prosesinə fayda verir.

Buna görə mənzil və obyektləri kriminal təhdid və digər risklərdən sığortalamaq üçün DİN Baş Mühafizə İdarəsinin xidmətindən istifadə etmək ən doğru üsul sayılmalıdır. Məsələ ondadır ki, ölkəmizdə polisin mühafizə etdiyi yaşayış yerində və ya obyektdə indiyədək qarət hadisəsi baş tutmayıb, əmlakı qorunan şəxs zərər çəkməyib. Oğurluğa cəhd edən şəxs niyyətini həyata keçirməyə sadəcə macal tapmır, uzaqbaşı cinayət başında yaxalanır.

Baş Mühafizə İdarəsindən öz texniki imkanları ilə bağlı bildirirlər ki, sistemin ən böyük üstünlüyü obyektin siqnalizasiya ilə qorunması və əmlaka hər hansı kənar müdaxilədən polisin dərhal xəbər tutmasıdır. Yüksək həssaslığa malik texniki vasitələr ən cüzi dəyişiklikləri belə qeydə aldığına görə həyəcan siqnalının işə düşməsi ilə polis özünü hadisə yerinə çatdırır. Özü də cəmi bir neçə dəqiqəyə. Buraya yalnız gizli talama niyyəti ilə qorunan əraziyə daxil olmaq cəhdi deyil, hər hansı texnogen qəza, yanğın hadisəsi kimi dekriminal təsirlərin önlənilməsi də aiddir.

### Peşəkarlıq əsas meyardır

Bayram ərəfəsində Nəsimi rayonunda baş vermiş daha bir hadisə mühafizə sistemi ilə qorunmanın əmlak sahibi üçün nə qədər önəm daşıdığını yenidən təsdiq etmiş oldu. Banklardan birinin qapısını dəmir alətlə qıraraq içəri daxil olmaq istəyən Zaur İbrahimovu rayonun Mühafizə İdarəsinin əməkdaşları saxlayaraq ərazi üzrə Polis Bölməsinə təhvil veriblər. Hadisə ərazidəki kameralar vasitəsilə də qeydə alınıb. Şübhəli şəxsi “iş başında” yaxalayan tutucu qrupun müdaxiləsi mühafizə polisinin etibarlı keşikçi obrazını bir daha doğruladı.



Baş Mühafizə İdarəsinin Xidmətin Təşkli İdarəsinin rəisi polis polkovniki Elmir İsgəndərov deyir ki, əsasən gecə saatlarında baş verən bu cür hadisələrə əməkdaşların operativ reaksiya verməsi üçün yetərincə maddi-texniki imkanlara və peşəkarlıq göstəricilərinə malikdirlər. Obyektin qorunduğundan xəbərsiz olan şübhəli gecənin qaranlığından istifadə edib içəri keçmək istəyərkən siqnalizasiyanın işə düşməsi ilə qaçmağa çalışsa da, tutucu qruplar tərəfindən yaxalanır. Bayram günlərində mağazalardan oğurluğa cəhd etmə, obyektlərin giriş qapısına müdaxilə kimi hallar üzrə daxil olan çağırışlardan başqa, dava-dalaş salma, ictimai asayişi pozma kimi hallara da operativ reaksiya verilib.

Bu faktlar o gerçəkliyi diktə edir ki, mühafizəyə almaq, müdafiə etmək, ayıq-sayıq keşik çəkmək peşəkarlara həvalə olunmalıdır. Bu isə məhz mühafizə polisinin meyarıdır.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# İnam, etibar və məsuliyyət

## İşğaldan azad olunmuş ərazilərdə polis əməkdaşları fədakarcasına çalışırlar

Xankəndi 1988-ci il hadisələrindən əvvəl də demək olar ki, bölgədə barıt çəlləyi rolunu oynayırdı. Onun çox ciddi-cəhdlə Ermənistana birləşdirilməsi üçün SSRİ rəhbərlərinin canfəşanlığı ulu öndərin qətiyyəti sayəsində iflasa uğradıqdan sonra planlar dəyişdi və milli zəmində qarşıdurma sonradan Azərbaycanın ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğalı ilə nəticələndi. Həm də dünyanın gözü önündə. İnsan hüquqları, beynəlxalq hüquq, dövlətlərin ərazi bütövlüyünə hörmət və s. ikili standartların qurbanı oldu. Bir qərinəni haqlayan kabusa, 1 milyon qaçqın və məcburi köçkünün məşəqqətli həyatına, yurd həsrətinə, ən nəhayət, Azərbaycanın suverenliyinin pozulmasına isə 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində və ötən il keçirilən antiterror tədbirlərində son verildi.









Təəssüflər olsun ki, bu gün azad olunmuş torpaqlarda həyatın öz axarına düşməsi üçün hələ də yerin altındakı "düşmənlərlə" mübarizə gedir. Torpaqlarımızın minalarla çirkləndirilməsini dövlət siyasətinin tərkib hissəsi kimi qəbul edən Ermənistanın mina xəritələrinin verilməsi ilə bağlı çağırışlarımıza səs verməməsi isə terrorunun bir başqa formasıdır.

Qarşıya çıxan çətinliklərə baxmayaraq bu gün ölkəmizdə Böyük qayıdışa hazırlıq prioritetlərdəndir. Vətəndaşlarımızın öz dədə-baba yurdlarına tam təhlükəsiz və rahat şəkildə dönmələri üçün orada təhlükəsizliyin qarantı olan güc strukturları, əlelxüsus da Azərbaycan Polisi xidmətini gecəli-gündüzlü davam etdirir. Belə ki, azadlığına qovuşduqdan sonra ilk Novruzunu qarşılayan Xankəndində hər gün olduğu kimi bayram günlərində də həmkarlarımız fasiləsiz və gücləndirilmiş iş rejimində çalışıblar. Əraziyə giriş-çıxış tam nəzarət altında həyata keçirildiyindən icazəsi olan şəxslərin sərbəst keçidi təmin edilib, təhlükəsizlik məqsədilə marşrutdan kənar ərazilərə insanların hərəkətinə icazə verilməyib, qanunazidd heç bir hal qeydə alınmayıb.

Yeri gəlmişkən, ötən müddət ərzində cəbbəxanaya dönən Xankəndidə ən ağlagəlməz yerlərdə - uşaq bağçalarında, məktəblərdə hər gün çoxlu sayda silah-sursatın tapılması düşmənin məkrinin, humanist dəyərlərə sayğısızlığının və uzunmüddətli döyüşlərə hazırlığının bariz nümunəsidir.

Məlumat üçün bildirək ki, fasiləsiz davam etdirilən tədbirlərlə 16-26 mart tarixlərində polis əməkdaşları tərəfindən təkcə Xankəndi şəhəri ərazisindən 64 ədəd müxtəlif markalı avtomat silahı, yeddi pulemyot, 21 tüfəng, səkkiz tapança, 78 qumbara, bir saatlı bomba, bir qumbaraatan, 46 alışdırıcı, 361 patron darağı, 33 742 ədəd müxtəlif çaplı patron, 6160 ədəd mərmi, doqquz ədəd süngü-bıçaq və digər sursat aşkarlanıb.

Bu gün Xankəndinin və digər azad olunmuş ərazilərimizin taleyi etibarlı, həm də doğma əllərdədir. Necə deyərlər, bu torpaqlarda bayrağımızın, himnimizin, tariximizin və sərvətimiz olan sabitliyin keşiyindəyik.

# Gənclər Polis Akademiyasını seçir

## Uğurlu təbliğat, doğru seçim və müsbət nəticə

Polis Akademiyasının budəfəki qonaqları Biləsuvar rayonunun müxtəlif məktəblərini təmsil edən, əyani təhsilə "hüquqşünaslıq" ixtisası üzrə 2024/2025-ci il tədris ili üçün artıq sənədlərini təqdim etmiş 11-cilər və növbəti illərdə Polis Akademiyasında təhsil almağı qarşısına məqsəd qoymuş 9-10-cu sinif şagirdləri olublar.



Qonaqlar Heydər Əliyev Mərkəzi, "Rayon Polis Şöbəsi" tədris modulu, kriminalistik şəhərcik, tədris korpusları, idman zalları və meydançalarına baxış keçirərək Akademiyada kursantlar üçün yaradılmış müasir şəraiti yaxından izləyiblər.

Şagirdlərə bu ali təhsil ocağında həyata keçirilən təlim-tədris prosesi, burada ali hüquq təhsili almağın önəmi, eləcə də daxili işlər orqanlarında xidmətin üstünlükləri barədə ətraflı məlumat verilib.

Akademiyada gənclərin daxili işlər orqanlarında və Daxili Qoşunlarda xidmətə və təhsilə təşviq edilməsində, eləcə də Polis Akademiyasının əməkdaşları tərəfindən həyata keçirilən təbliğat-təşviqat işlərində fəallıq göstərən ərazi polis orqanları və təhsil sektorlarının əməkdaşları ilə də görüş keçirilib.

Daxili işlər orqanlarının yüksək nəzəri və təcrübi biliklərə yiyələnmiş ixtisaslı kadrlarla komplektləşdirilməsi məqsədilə sağlam düşüncəli və intellektli gənclərin ixtisas seçimində Polis Akademiyasına üstünlük verməsinin təmin edilməsində onların fəaliyyətinə xüsusi diqqət çəkən polis general-mayoru Canpolad Daanov bu istiqamətdə aparılan işləri yüksək qiymətləndirib.

Qeyd olunub ki, onlar ərazi polis orqanları ilə birlikdə təbliğat-təşviqat işlərinin davamlı aparılmasında, gənclərin doğru seçim edərək gələcək karyeralarında uğur qazanmalarında yüksək fəallıq və vətəndaş mövqeyi nümayiş etdirərək hər kəsə nümunə olacaq örnək bir addım sərgiləyiblər.

Tədbirdə iştirak edən Tərtər, Qəbələ rayonlarının təhsil işçiləri, Lənkəran ŞRPŞ-nin, Quba və Ağdam RPŞ-lərin əməkdaşları Akademiyaya dəvətdən məmnunluqlarını bildirib, bundan sonra da səylərini əsirgəməyəcəklərini ifadə ediblər.

Sonda qonaqlara qiymətli hədiyyələr təqdim olunub və xatirə şəkli çəkdirilib.

# Şəhid oğulların ocağında

## Tarixi ədaləti, bütövlüyümüzü bərpa edənlər unudulmurlar

**Ənənəsinə sadiq qalan Azərbaycan Polisi yazın gəlişinin carçısı olan Novruz bayramını bu il də şəhid, qazi ailələri ilə birlikdə qeyd edib.**





Ölkəmizi əhatə edən görüşlərdə Zəfər salnaməmizi yazan oğulların qəhrəmanlığından söhbət açılıb, onların yarım qalan, lakin hər bir gəncə örnək olan ömür yolunun, xatirələrinin heç vaxt unudulmayacağı vurğulanıb.

Qeyd olunub ki, bu gün ərazi bütövlüyünü tam bərpa edən, suverenliyinə qovuşan ölkəmizdə şəhid, qazi ailələri dövlətin diqqət və qayğısı ilə əhatə olunub, üzləşdikləri problemlərin həlli üçün hər bir dövlət qurumu səfərbərdir.

Cəlilabadda, Biləsuvarda, Göyçayda, Astarada, Masallıda, Xaçmazda, Bərdədə, Zaqatalada, bir sözlə, bütün bölgələrimizdə qalanan bayram tonqallarını həmrəyliyimizin nümunəsi kimi qiymətləndirən, hər il olduğu kimi bu il də onlara baş çəkərək qayğıları ilə maraqlandıqlarına, göstərilən diqqətə görə şəhid hərbi qulluqçuların ailə üzvləri ölkə və DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

Yeri gəlmişkən, həmkarlarımız şəhid, qazi övladlarını da bayram sovqatları ilə sevindiriblər.

*"Polis"*

# Qətiyyətli mübarizə

## "Narkotələ"yə düşənlər ifşa olunub

Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları "NARKOTƏLƏ" şərti adı altında martın əvvəlindən 26-na kimi narkotiklərin qanunsuz dövriyyəsinə qarşı paytaxt və bölgələrdə 30-a yaxın əməliyyat keçirib.

Nəticədə 28 nəfər və 2 mütəşəkkil dəstənin üzvü saxlanılıb. Onlardan 13-ü ölkə ərazisində narkotiklərin tədarükü ilə məşğul olan əsas şəxslər olub.

Əməliyyatlarla "qara bazar"da dəyəri 6 milyon manat olan 157 kiloqram, o cümlədən 91 kiloqram tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş marixuana, 42 kiloqram heroin, 17 kiloqram metamfetamin, 7 kiloqram tiryək, həmçinin digər növdən olan narkotik vasitə, 12 211 ədəd psixotrop tərkibli metadon, tramadol, lirika həbi, 1 ədəd "Makarov" tapança, 13 ədəd patron və 2 ədəd patron sandıqçası ələ keçirilib. Saxlanılan şəxslərin qeyri-qanuni yollarla İrandan ölkəmizə gətirdikləri narkotikləri ölkə ərazisində satmaq üçün əldə etdikləri müəyyən olunub.

Faktlarla bağlı cinayət işləri başlanılıb, saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Yaddaşlara həkk olunan tarix

## Mart soyqırımından 106 il ötür




1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir.

Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən "əksinqilabçı ünsürlərlə mübarizə" şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Əllərinə düşən fürsətdən istifadə edən erməni cəlladları uşaq, qoca, qadın demədən dinc əhalini kütləvi surətdə qətlə yetirdilər. On minlərlə azərbaycanlı ilə yanaşı, minlərlə ləzgi, yəhudi, rus, avar və talış milliyyətinə mənsub insanları qılıncdan, süngüdən keçirdilər, diri-diri yandırdılar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və mədəni abidələri dağıtdılar. Bakının böyük bir hissəsini xarabalığa çevirdilər. Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirildi.

Erməni daşnakları 50 min azərbaycanlını qətlə yetirib, 10 minlərlə insanı öz doğma yurd-yuvalarından didərgin saldılar.

1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanında 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib.

*R.Əliyeva*

# Silah-sursat aşkar edilib

## Miras qalan ov tüfəngi təhvil verilib

Qubadlı Rayon Polis Şöbəsinin əməkdaşları Mahmudlu kəndi ərazisindən xeyli sayda sursat aşkar ediblər.

Bərdə regional qrupumuzdan verilən məlumata görə, aşkar edilən 1 mina, 73 minaatan mərmisi və 1000-ə yaxın patron aidiyyatı üzrə təhvil verilib.

Qanunsuz saxlanılan silah-sursatın vətəndaşlar tərəfindən könüllü təhvil verilməsi məqsədilə də profilaktik tədbirlər davam etdirilir.

Şəki regional qrupumuzdan bildirilib ki, Oğuz Rayon Polis Şöbəsinə müraciət edən rayon sakini N.Daşdəmirov bir neçə il əvvəl dünyasını dəyişən babasından qalan, R.Qarayev isə tapdığı ov tüfəngini könüllü olaraq təhvil verib.

Martın 26-da paytaxt və respublikanın ayrı-ayrı rayonlarında 3 ədəd qumbara, 2 patron darağı, 9 ədəd müxtəlif markalı tüfəng və 226 ədəd müxtəlif çaplı patron təhvil götürülüb.

Kəlbəcər Rayon Polis Şöbəsinin əməkdaşları Qozlu kəndi ərazisindən 14 ədəd "F-1" əl qumbarası və partlayıcı başlıqlar aşkar ediblər. Partlayıcı sursatlar təhlükəsizlik tədbirləri görülərək ərazidən götürülüb.

# Azərbaycan idmanını dünyaya tanıdanlar

## Polis Akademiyasının müəllimi mükafatlandırılıb



Bu günlərdə Azərbaycan Memarlıq və İnşaat Universiteti və "Olimsport" jurnalının təşkilatçılığı ilə 2023-cü ilin "Qızıl 10-luq" idman sorğusunun qaliblərinin mükafatlandırılma mərasimi keçirilib. Mərasimdə ölkəmizin idman ailəsinin tanınmış üzvləri bir araya gəlib.

Tələbələrin də iştirak etdiyi tədbirin təşkilində əsas məqsəd gənclərin sağlam həyat tərzinə və idmana marağını artırmaqdır deyən Azərbaycan Memarlıq və İnşaat Universitetinin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Orxan Naqdiyev ölkəmizdə idmana göstərilən dövlət qayğısından və idmançılarımızın uğurlarından bəhs edib.

"Olimpsport" jurnalının baş redaktoru Ramin Allahverdiyev və digər çıxış edənlər idmançılarımızın bundan sonra da daha böyük qələbələrə imza atacaqlarına, bayrağımızı hər zaman ucalarda dalğalandıracaqlarına əminliklərini ifadə ediblər.

Sonra "Qızıl 10-luq" mükafatı sahiblərinə təqdim olunub. Qeyd edək ki, qaliblərin sırasında "İlin idman hakimi" nominasiyasında qalib olmuş DİN Polis Akademiyasının İdman kafedrasının müəllimi, polis baş leytenantı güləş üzrə beynəlxalq dərəcəli hakim Tural Əliyev də var.

# Qələbə sorağı

## Atıcılarımız medal qazanıb



Almaniyanın Dortmund şəhərində atıcılıq üzrə beynəlxalq turnir keçirilib.

Gənclərdən ibarət qarışıq komanda şəklində çıxış edən təmsilçilərimiz Leyli Əliyeva və Vladislav Kalmıkov 10 metr məsafəyə pnevmatik tapançadan güllə atma növündə qızıl medala sahib çıxıblar.

Beynəlxalq turnirdə 10 metr məsafəyə pnevmatik tapançadan güllə atma növündə və 25 metr məsafəyə kiçikçaplı tapançadan sürətli atəşaçmada DİN İdman Cəmiyyətinin yetirməsi Zeynəb Sultanova qızıl, 10 metr məsafəyə pnevmatik tapançadan güllə atma növündə mübarizə aparan idmançımız Vladislav Kalmıkov qızıl medal qazanıblar.

25 metr məsafəyə kiçikçaplı tapançadan sürətli atəşaçma növündə DİN-in Daxili Qoşunlarının idman komandasının məşqçi-müəllimi mayor Ruslan Lunyov bürünc medal əldə edib.

10 metr məsafəyə pnevmatik tapançadan atəş üzrə qarışıq komanda yarışında idmançılarımızdan DİN İdman Cəmiyyətinin təmsilçisi Nigar Nəsirova və Ruslan Lunyov tandemi qızıl, Xanna Əliyeva və Elvin Astanov isə gümüş medal qazanıblar.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# "Detektiv" çiçək tozları

## Bəzən təbiət də şahidlik edir

Çiçəkli bitkilər çiçək tozu vasitəsilə çoxalır. Çiçək tozu təkcə rənginə görə deyil, həm də formasına, ölçüsünə, qoxusuna və görünüşünə görə bir-birindən fərqlənir. Bu xüsusiyyətləri sayəsində çiçək tozu insanların sanki barmaq izlərinə bənzəyir...

### Qəribə, amma həqiqətdir...

Sən demə, tozcuqlar cinayət hadisələrinin harada və nə vaxt baş verdiyini açmağa kömək edirmiş. Elm inkişaf etdikcə təbiətin daha bir möcüzəsi hadisələri "yaddaşında saxlama qabiliyyəti" də üzə çıxmış və təcrübədə sınaqdan keçmişdir. Kriminal ekspertlərin fikrincə, çiçək tozu yalnız yaz mövsümündə ətrafda uçan hissəciklər deyil, həm də...

Məhkəmə palinologiyasından (tozcuqşünaslıqdan) istifadə etməklə cinayəti törədən şəxs, hadisə yeri, zərərçəkmiş şəxs və hadisənin baş vermə vaxtını dəqiqləşdirərək, hadisə yerində qalan dəlil ilə cinayəti törədən şəxs arasında əlaqəni tapmaq, cinayəti sübut etmək, qurbanın dediklərini yoxlamaq, şübhəlilərin sayını bilmək, polisə düzgün istiqamətdə araşdırma aparmağa kömək etmək, müxtəlif dələduzluq cinayətlərinə işıq salmaq, hətta narkotiklərin keçdiyi marşrutu müəyyən etmək mümkündür.

Demək olar ki, hər yerdə rast gəlinən və adi gözlə görülməyən bu tozcuqlar hadisə yerindəki insanları və materialları "çirkləndirmiş ola bilər". Məhkəmə palinoloqları meyitdən və ya cinayət yerindən götürülmüş tozcuq nümunələri ilə onların təbii olaraq tapıldığı yer, vaxt, şübhəli şəxslər və şübhəli əşyalarla hadisə yeri arasında əlaqə yaratmağa çalışırlar.

Məsələn, meyitin üzərindəki palçıq ekspert-palinoloqlar tərəfindən yoxlanılır və onun içindəki tozcuq aşkarlanır. Bununla da qətlin törədildiyi yerin bitki örtüyü ilə bağlı məlumat əldə edilir. Bir bölgədə görülən bir ağac növündən təbiətə buraxılan tozcuqların o bölgədən tamamilə fərqli bir bölgədəki cəsədin üzərində olması, mərhumun öldürülərək başqa yerə daşındığını mütəxəssislərə çatdırır.



### İzsiz cinayət olmur

Hər bir cinayətkar özü də bilmədən ya hadisə yerindən nəsə götürür, ya da orda özündən sonra "iz" qoyur. Yəni təbiət də hər şeyə öz dili ilə şahidlik edə bilir. Hadisə yerindən əldə edilən sübutlar cinayətin açılmasında çox mühüm rol oynayır. Bu məqamda "detektiv çiçək tozu" cinayətkarların kabusuna çevrilir. Bitkilərin "barmaq izi" olan çiçək tozcuqları adi gözlə görünməsə də, törədilən cinayətlərin açılmasında əvəzsizdir. Çiçək tozu şübhəli şəxsin və ya qurbanın paltarlarında, saçlarında, qulaqlarında və tənəffüs yollarında iz buraxır.

### Oğurluq tozcuqlar sayəsində açılıb

Çiçək tozu ilk dəfə 1959-cu ildə İsveç və Avstriyada iki ayrı işdə sübut kimi istifadə edilib, hətta məhkəmə tərəfindən rəsmi olaraq qeydə alınıb. Türkiyədə palinoloji tapıntılar ilk dəfə 2006-cı ildə oğurluq işinin açılmasında məhkəmədə sübut kimi əhəmiyyətli rol oynayıb.

Bursanın Gemlik mahalına bağlı kəndlərdən birində tövlədən 3 baş qoyun oğurlayan şübhəlilər tozcuqların "ifadələri" sayəsində yaxalanıb. Detektivlər şübhəlinin avtomobilindən götürdükləri tozcuq nümunələrini hadisə yerindən götürdükləri nümunələrlə müqayisə etdikdə onun deyəcək heç bir sözü qalmayıb.

Təbii ki, tozcuq və digər dəlillər cinayət törədildikdən sonra cinayətkarları tutmaq üçün faydalıdır, lakin daha önəmlisi cinayətin törədilməsinin qarşısını almaqdır.

*Hazırladı: Aytən Tahirova*

# İdman tədbirləri davam etdirilir

## Polis əməkdaşlarının fiziki bacarıqlarının inkişafı diqqət mərkəzindədir



Təsdiq olunmuş təqvim planı əsasında DİN İdman Cəmiyyəti tərəfindən bölgə polis orqanlarının ştatdankənar təlimatçıları ilə keçirilən təlim-məşq toplanışlarına yekun vurulub. Təlimlərə 4 bölgə üzrə polis orqanlarından - Gəncə, Mingəçevir, Şirvan və Xaçmaz da daxil olmaqla ümumilikdə 240 əməkdaş cəlb olunub. Məşq toplanışlarının əsas məqsədi polis əməkdaşlarının fiziki hazırlığının, həmçinin silahsız özünümüdafiə bacarıqlarının inkişaf etdirilməsidir. Təlimlərin keyfiyyəti təşkili məqsədilə məşqlər qruplar şəklində aparılıb. Proqramı soyuq, eləcə də odlu silahdan özünümüdafiələr, tərksilah etmələr, boğucu fəndlərdən azadolmalar, o cümlədən saxlanılmış şəxslərin üst-başının yoxlanılması, qolun kürək arxasına bükülməsi kimi bacarıqların təkmilləşdirilməsi əhatə edib.

Sonda iştirakçılardan məqbullar qəbul olunub.

Tədbirlər planının davamı olaraq respublikanın 54 rayonunda daxili işlər orqanları əməkdaşları arasında silahsız özünümüdafiə və əlbəyaxa döyüş üzrə turnirlər keçirilib. Yarışlarda ümumilikdə beş min əməkdaş iştirak edib.

İkimərhələli turnirlərdə iştirakçılar əvvəlcə silahsız özünümüdafiə bacarıqları ilə sınağa çəkilib. Yüksək texnika nümayiş etdirərək ilk mərhələni məharətlə keçən 1080 idmançı növbəti tura vəsiqə qazanıb. Gərgin idman mübarizəsi şəraitində keçən turnirin 67, 73, 80, 88, 97 və +97 kiloqram çəki dərəcələrinin ən güclüləri müəyyənləşib.

Qaliblərə medal, diplom və qiymətli hədiyyələr təqdim edilib.

*Teymur Əlizadə*
*polis mayoru*

# Polis xəfiyyəsi Ejen Fransua Vidokun memuarları - Hədəfdə "Qızıl alma"dır

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

*(Əvvəli ötən sayımızda)*

- Salam, dünyanın ən ağıllı xanımı.
- Salam, Jan-Luis. Buyurun, mənə görə nə qulluğunuz?
- Axşama qədər mənə iyirmi frank borc versəydiniz sizə sonsuz minnətdar olardım.
- Mən sizin axşamınızı yaxşı bilirəm! Əlinizə bir şey keçən kimi, sizi ancaq Kurtildə tapmaq olar.
- Yox-yox, nə danışırsınız? Mənə tam arxayın ola bilərsiz.
- Arxayın olum, deyirsən? Düzünü desəm, sizə yox deməyə ürəyim gəlmir. Dayan, onda belə edək. Sən mənim arxamca gəl, dostun isə gedib Ozel küçəsinin tinində yerləşən meyxanədə gözləsin.

Annetta ilə baş-başa qaldıqdan sonra, ona nə etmək lazım olduğu barədə təlimatları verdim. Məni tam anladığına əmin olduqdan sonra meyxanədə səbirsizliklə məni gözləyən Rişlenin yanına yollandım. "Bax, bu əsil alicənab xanımdır", – deyə, iyirmi franklıq sikkəni ona göstərdim.

- Bu, başqa məsələ. Nə deyirsən, bəlkə, malları da ona verək?
- Çox ona lazımdı bizim cır-cındır. O, yalnız parıldayan əşyaları sevir. Saatlar, gümüş qablar...
- Çox heyif, əsl bizim işimizə yarayacaq qadın idi.

### Müştəri axtarışında

Meyxanədə bir qədər içdikdən sonra, yağlı Normaydiya qazını və kolbasanı da götürüb evə döndük. Yeyib-içmək və qonaqlıq üçün nəzərdə tutulduğundan pulu ortalığa qoymuşdum. Dərhal da biz həmin məbləğə on iki litr şərab və hər birinin məbləği dörd funt olan üç ədəd çörək aldıq. İştahamız yerində olduğundan aldığımız yeyəcəkləri dərhal yeyib bitirdik. "Qəmzə" son damlasına qədər içildi. Məclis bitəndən sonra bağlamaları daşımağa başladılar. Onların içində müxtəlif növ kətan parçalar, çarşaflar, köynəklər, naxışlarla bəzədilmiş donlar, qalstuklar və s. vardı. Bütün mallar zivədən qurumadan yığıldığı üçün hələ də nəm idi. Bu yaramazlar onları dəmir barmaqlıqları qıraraq pəncərədən keçməklə Eşkiye küçəsində yerləşən imkanlı birinə məxsus malikanədən oğurlamışdılar.




Malları saf-çürük etdikdən sonra, mən onları hissələrə ayırmağı məsləhət gördüm. Dostlarım məsləhətimə əməl edərək malları iki hissəyə ayırdılar. İndi bizi yalnız bir məsələ düşündürürdü – bunları harda və kimə satmaq. Bir hissəsi üçün narahat olmasalar da, yerdə qalanına müştəri tapmaqda çətinlik çəkirdilər. Vəziyyəti belə görəndə, mən onlara Juliver küçəsində yaşayan "Qızıl alma" ləqəbli cır-cındır alverçisini məsləhət gördüm. O, tanıdı-tanımadı ilk dəfə rastlaşdığı adamdan belə oğurlanmış mal alan birisi kimi tanınırdı. İndi onu sınamaq şansı yaranmışdı və mən bu fürsəti əldən vermək niyyətində deyildim. Fikirləşirdim ki, əgər bu da ələ keçsə düzgün gedişlərimin sayəsində iki işi birdən həll edəcəm və bir zərbəylə üç dovşanı birdən öldürmək olacaq.

Təklif etdiyim adamla təmasa girmək qərarı verildi. Amma qaranlıq düşməmiş heç bir iş görmək olmazdı. O vaxtacan da boşluqdan adamın ürəyi partlayardı. Axı, nə haqda danışasan? Oğrular adətən cansıxıcı olurlar. Hətta, saatın dörddə birini belə onların əhatəsində keçirmək dözülməzdir. Bəs nə edək? Onlar adətən "işləməyəndə" də heç nə etmirlər, işləyəndə də. Buna baxmayaraq, vaxtı öldürmək üçün nəsə etmək lazım idi. Bizim hələ bir miqdar pulumuz qalmışdı. Səs çoxluğuna malik olanlar şərab tələb etdilər. Merkurinin oğulları əla içə bilirlər, amma nə zaman, harda gəldi içmək də olmaz axı. İçkidən beyni dumanlanmış bu zavallılar nədən danışdıqlarını heç özləri də bilmirdilər. Amma onların söhbəti hərlənib-fırlanıb yenə də lənətə gəlmiş briqadadan (polisdən) düşürdü.

*(Ardı var)*

POLIS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10582
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik